***Ölkəmizdə aparılan siyasətin mərkəzində vətəndaş amilinin dayandığı, Prezident İlham Əliyevin islahatlar proqramının əsas hədəfinin də məhz əhalinin rifahının və dövlət sosial xidmətlərində insanların məmnunluğunun təmin edilməsi olduğu danılmaz faktdır. Aparılan islahatlarda əsas məqsəd sosial müdafə tədbirlərinin gücləndirilməsi, dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında vətəndaş məmnunluğunun təminatı prinsipinə uyğun qurulmasıdır. 2019-cu il həm əhalinin rifah halının yaxşılaşdırılması, həm də sosial sahədə xidmətlərin DOST layihəsi əsasında innovativ yenilikləri ehtiva edən yeni keyfiyyət mərhələsinə keçilməsi istiqamətində inqilabi addımların atılması ilə fərqlənənir.***

*Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Azərbaycan şəffaflığı öz siyasətində bayraq edən ölkəyə çevrilir

Oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı Azərbaycanın sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkə olduğunu qeyd edərək, "Biz gələn il də ciddi sosial proqramlar icra edəcəyik, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq"-- deyə bəyan etdi. Bu isə Azərbaycan Prezidentinin sosial sahə ilə bağlı islahatlar proqramının gələn il də əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində növbəti ciddi irəliləyişləri təmin edəcəyini göstərir.

Məlumdur ki, ölkənin Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi dövlət sosial xidmətlərinin – 132 xidmətin ölkəmiz üçün yeni brend ola bilən müasir və innovativ platformada təqdimatı təcrübəsinin formalaşmasını təmin edib. Cari il və gələn ilin ilk rübü Bakıda daha 4 DOST mərkəzi yaradılmaqla, eyni zamanda, artıq növbəti ildən DOST şəbəkəsinin respublikanın regionları üzrə genişləndirilməsinə başlanacaq.

"Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, qarşıdakı dövrdə də sosial sahədə islahatlar uğurla davam etdirilməklə və daha da genişləndirilməklə, bu islahatlarda əsas prioritet – idarəetmə və xidmət sahələrində şəffaflığın, vətəndaş məmnunluğu prinsipinin yüksək səviyyədə təminatı olacaq". Bunu Prezident İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar sosial sahədə görüləcək işlərin müzakirəsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki (ƏƏSMN) toplantıda nazir Sahil Babayev bildirib. Nazir qeyd edib ki, ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində transfert məbləğinin payı 2017-ci ildəki 39 faizdən ötən il 35,6 faizə, bu il isə 32,8 faizə enib. Əhaliyə sosial ödənişlərin ciddi şəkildə artdığı şəraitdə transfert məbləğin azalması təqdir olunmalıdır. Qarşıdakı dövrdə də fondun gəlirlərində mütəmadi artımın və həmçinin idarəetmə xərclərinin optimallaşdırılmasının təmin edilməsi bu müsbət dinamikanın davam etməsinə imkan verəcək.

Aparılan islahatlar, reallaşdırılan proqramlar sosial sahədə böyük dönüşə səbəb olmaqla, uğurlu nəticələr əldə edilməsinə şərait yaradıb. Ölkədə ilk proaktiv xidmət kimi, 2019-cu ilin əvvəlindən pensiyaların avtomatlaşdırılmış qaydada təyinatı mexanizminə keçilib. Bu günlərdə növbəti addım kimi, uşağın doğulmasına görə birdəfəlik müavinət təyinatı da elektronlaşdırılıb və ilin sonuna qədər 10-dək müavinət və təqaüd növü üzrə də təyinat mexanizmi elektronlaşacaq.

Ünvanlı sosial yardım sistemi də təkmilləşdirilib. Ümumilikdə, bu proqramın aztəminatlı ailələrə daha əlçatan olmasının təmin edilməsi işləri sürətləndirilib və gələcəkdə proqramın əhatə dairəsinin genişlənəcəyi nəzərdə tutulur. Eyni zamanda, sosial yardım təyinatının şəffaflaşdırılması və ünvanlılığının təmin edilməsi işləri aparılır. Müşavirədə dövlət başçısı bu məsələyə xüsusi toxunmuşdur: "Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz".

Araşdırma və təhlillər nəticəsində nazirlik 1800 nəfərin saxta yollarla ünvanlı dövlət sosial yardımı aldığını müəyyən edib və həmin şəxslərə yönələn yardımlar dərhal dayandırılıb. Daha min nəfərədək şəxsin də saxta şəkildə sosial yardım aldığına dair şübhələr vardır ki, onlarla bağlı da eyni tədbirlər görülməklə, bu şəxslərə yönələn yardımlar dayandırılacaq. Saxta yollarla sosial yardım almağa şərait yaradan, bunun üçün qısa müddətli əmək müqavilələri bağlayan, yaxud əmək müqavilələrində bilərəkdən əmək haqlarını reallıqda olduğundan az göstərməklə işçilərinin böyük qisminin sosial yardıma çıxışına süni imkan yaradanlarla bağlı da hüquq - mühafizə orqanlarına müraciət olunacaq.

Şəffaflaşdırma işləri, həmçinin əlilliyin təyinatı məsələlərini də əhatə edir. Bu sahədə də diqqətçəkən məqamlar var. Belə ki, 2500-dək yanlış əlillik təyinatı aparılan yoxlamalar nəticəsində aşkar edilərək ləğv olunmaqla bərabər, bu istiqamətdə araşdırmalar davam edir. Yeni əlillik təyinatlarının aparılması istiqamətində də ciddi nəzarət həyata keçirilir.

Qeyri-rəsmi məşğulluğun qarşısının alınması sahəsində də müsbət nəticələr əldə edilib. Bu il əmək müqavilələrinin sayında artıq 138 min artımın olduğu, əmək münasibətlərinin leqal müstəvidə qurulması ilə bağlı ciddi monitorinqin aparıldığı məmnunluq doğurur. Dövlət başçısının müvafiq sərəncamı ilə cari il sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı məbləği 250 manata çatdırılıb və heç bir müəssisədə işçilərə 250 manatdan aşağı məbləğdə əməkhaqqı verilə bilməz. Ona görə bu sahəyə də ciddi nəzarət edilir.

Aktiv məşğulluq tədbirlərinin ildən-ilə gücləndirildiyini bildirən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri S.Babayev qeyd edib ki, bu ilin 9 ayında 62 minə yaxın şəxs məşğulluq orqanları tərəfindən işlə təmin edilib. Bununla belə, bağlanan əmək müqavilələrinin sayında məşğulluq orqanları tərəfindən işlə təmin edilənlərin payının artırılması üçün səylər gücləndirilməlidir. Nazir digər aktiv məşğulluq proqramlarının da genişləndirildiyini bildirib. O, işsiz və işaxtaran vətəndaşların məşğulluq imkanlarına yiyələnməsində onların əmək bazarında rəqabət qabiliyyətli peşələr üzrə peşə hazırlığına cəlb edilməsinin əməmiyyətini qeyd edib. Qarşıdakı dövrdə bu sahədə işlərin miqyasının daha da artacağı və peşə tədrisi mərkəzləri şəbəkəsinin genişlənəcəyi bildirilib.

Özünüməşğulluq proqramı sosial-iqtisadi əhəmiyyətə malik olmaqla, aztəminatlı ailələrin rifahının yaxşılaşdırılmasında, onların dövlət sosial yardımı sistemindən asılılığının aradan qaldırılmasında və sahibkarlığa keçid imkanı əldə etməsində xüsusi rol oynayır. Bu proqramın ildən-ilə xeyli genişləndirilməsi təmin edilir. 2018-ci ildə əvvəlki illə müqayisədə 6 dəfədən çox olmaqla 7 mindən artıq insan bu proqrama cəlb edilib. Bu il isə 10 minədək insanın proqrama cəlb edilməsi nəzərdə tutulub. Gələn il bu rəqəm yenə də artacaq. Bu ilin ötən dövründə özünüməşğulluq proqramı çərçivəsində artıq 3500-dən çox şəxsə kiçik ailə təsərrütaflarını qurmaları üçün aktivlər verilib və bu proses hazırda davam edir. Xüsusilə proqramın icrasında əliliyi olan şəxslərin, şəhid ailələri üzvlərinin, məcburi köçkünlərin, aztəminatlı ailələrin və digər həssas qrupların, tərkibində sağlamlıq imkanları məhdud uşaqlar olan ailələrin, çoxuşaqlı ailələrin iştirak səviyyəsinin daha da artırılması prioritetdir.

"İşsizin DOSTu" proqramının bu il 38 min şəxsin ödənişli ictimai işlərlə təminatına imkan verdiyini, həmin işçi qüvvəsinin, eyni zamanda, əmək bazarında rəqabət qabiliyyətli peşə bacarıqlarına yiyələnmələri üçün də məqsədyönlü işlərin aparılmasının, bununla bağlı proqramın hazırlanmasının vacibliyini də qeyd etmək yerinə düşər. DOST xidmətləri, eyni zamanda, vətəndaşların qəbulu və müraciətlərinə baxılmasında da bir nümunə formalaşdırıb. DOST mərkəzinə müraciət edən vətəndaşlara burada müraciətlərinə uyğun xidmətlərin operativliyi də artır – bu xidmətlərin vətəndaşa tam çatdırılma müddəti 15 dəqiqəyə enib.

Xidmət sahələrində şəffaflığın təminatına, məmur-vətəndaş təmaslarının aradan qalxmasına yönələn işlərin, xidmətlərin e-texnologiyaların tətbiqi şəraitində proaktiv qurulması üçün atılan addımların, o cümlədən pensiya təyinatının avtomatlaşdırılmasının, artıq müavinətlər sistemində də analoji təcrübənin tətbiqinə başlanmasının və digər sosial məsələlərin xüsusi önəmi vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır.

***Z.BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***